# Təbii səngər-qala abidəsi - İlandağ... faciələri, hay kilsəsinin izi ilə...

**Naxçıvan şəhərindən 20 km şərqdə, Toğluca dağlıq silsiləsinin şimal-qərb hissəsində, 2412 m yüksəkliyə ucalan, Əlincə və Gilan çaylarının suayrıcısı olan vulkanogen mənşəli İlandağ Türk-Müsəlman dünyasının tarixi maddi-mədəniyyət və sakral-ruhani ocağı (e.ə. II-I minilliyə aid daş-gil kitabələri, IX-XVIII əsr qala divarları və qüllələri...) olmaqla yanaşı, həm də XIX-XX əsrlərdə Naxçıvan mahalında mürtəce hay kilsəsinin təcavüzkar hədəflərindən biri olub.**

Şumer yazılı daş-gil kitabələrdə adı-ünvanı çəkilən, təbii şəraiti təsvir edilən İlandağın dini-ruhani müqəddəsliyi Haça qaya kimi yozumunda da mənalandırılmaqla yanaşı, həm də nahiyənin, bütövlükdə bölgənin ziyarət-ibadət ocağı kimi özündə minilliklər tarixini ("Naksuana" toponimi ilk dəfə II əsrdə yunan alimi K.Ptolomeyin (100-170) "Coğrafiyaya rəhbərlik" əsərində çəkilib, koordinatları tərtib etdiyi xəritədə verilib), dünya yaradılışını, antik dünya sivilizasiyasını, əski Türk-Müsəlman dini fəlsəfəsini, əfsanələrini, rəvayətlərini ("İki dağ","Ağrı və Haça dağ", "Gəlinqayası", "Gəmi qaya"...) ... yaşadır.

Türk-Müsəlman dünyasının tarixi, Naxçıvan bölgəsi barədə XIII əsrdə Roma papasının səfiri Qilyom Rubrukun (1220-1293) "Şərq ölkələrinə səyahət" kitabında, XVII əsrdə fransız səyyahı Jan Şardenin (1643-1713)... əsərlərində qiymətli məlumatlar verilir. Bu baxımdan J.Şardenin 1711-ci ildə Amsterdam şəhərində çap edilmiş "Qara dənizi və Kolxida ovalığını keçməklə İrana və Şərqi Hindistana səfərin gündəliyi" kitabında qeyd olunub ki, Avropa krallarının Osmanlı Türkiyəsinə və Azərbaycan Səfəvilər dövlətinə qarşı hücum edəcəkləri halda "erməni"lərə arxalanmağı hay kilsəsinin vəd verməsi müəllif tərəfindən heyrətlə qarşılanıb (bu toplumun xislətinin dəyişilməzliyinə bir sübut).

Dini rəvayətə görə, dünyanın su altında qaldığı zaman Zəngəzurun Gəmiqaya zirvəsindən (3726 m) Ağrıdağ (5137 m) istiqamətinə üzən həzrəti Nuh peyğəmbərin gəmisi bu dağa toxunaraq, onu iki qoşa-haça zirvəyə ayırıb və irfani inamın, duyğusal inancın yaranma məkanı (məqamı) kimi məna daşıyan İnamdağ və ya Haçadağ oro-teotoponimlərinin yaranmasına vəsilə olub. Bu teotoponimin yerli şivədialekt tələffüzünə uğraması, təbii ki, uğurlu olmayıb. Belə ki, Bütöv Azərbaycanın antik dünya sivilizasiyasının mərkəzlərindən biri olan İnam(c)dağ həm də bəşər cəmiyyətinin mərkəzi kimi dini-tarixi əhəmiyyətə malikdir.

Düşmənlərimizn məkrli niyyətlərinin, fasiləsiz hücumlarının Naxçıvana yönəlmə səbəblərindən biri də məhz bu amildir.

İlandağ-İnam(c)dağ ətrafındakı qədim Əlincə, Qazançı, Göydərə (Qobustan və Lerik rayonlarında da Göydərə kəndi mövcuddur), Xanəgah (Quba rayonunda da bu adda kənd, Hacıqabul rayonunda məbəd-ziyarəgah ocağı var) ... kəndləri də əski tarixiliyi və dini-irfani zənginliyi baxımından fərqlənən yaşayış məntəqələridir. Bu kəndlər beynəlxalq əhəmiyyətli iqtisadi-ticarət və strateji baxımdan əlverişli siyasi-hərbi mövqeyə malik olub. Çünki Türk-Müsəlman dünyasının mistik-ilahi inanc təsəvvüfünə görə, halal ticarət yolları həmişə müqəddəs ibadətgahların, ziyarət yerlərinin yanından (yaxınlığından) keçib, simsarlıqda tikilən karvansaraylar həm də dini-irfani ibadət məkanı rolunu oynayıb (Türk obalarında ibadət ocaqları da həmişə mərədə (ortada) tikilib).

Uzaq Şərq ölkələrindən Aralıq dənizi hövzəsi və Qərbi Avropa ölkələrinə uzanan qədim "İpək yolu"nun Azərbaycandan keçən hissəsi Şirvan, Mil, Qarabağ, Zəngəzur və Naxçıvan mahallarının sakral-ruhsal ərazilərindən keçib ("həm ziyarət, həm ticarət" kəlamının etimoloji mənasını doğuran amil bundan qaynaqlanır). Bütöv Azərbaycan miqyasında bunca halal məkan - ibadət ocaqlarından biri kimi seçilən İlan dağ-İnam(c)dağ, Culfa nahiyəsi istisnalıq təşkil etmədiyi kimi, düşmən(lər) gözünə də ox kimi batmaqda, onların dinciliyini pozmaqdadır, minilliklər boyunca olduğu kimi.

Təsadüfi deyil ki, bu məkrli niyyətlər hay kilsəsinin XIX-XX əsrlər boyunca mürtəce fəaliyyətinin əsas istiqamətinə çevrilib. Mürtəce hay kilsəsinin bu məkrli niyyəti aşağıdakı məqsədlərə yönəlib0:

-bəşər cəmiyyətinin dini-dünyəvi qədim sivilizasiya mərkəzi olan Naxçıvanı öz adlarına çıxmaqla "hay sürüsünü" sivilizasiyalı qələmə verməyə;

-bu baxımdan hay sürüsünün dünyanın "ən qədim xalqı" adına yiyələnməyə;

-Türkiyə və Azərbaycan dövlətləri arasında birbaşa quru sərhədlərinin (əlaqələrinin) aradan qaldırılmasına;

-beynəlxalq əhəmiyyətli Naxçıvan-Təbriz-Tehran yolunun ələ keçirilməsinə.

Məhz bu mənfur niyyətlərinə çatmaq üçün bütün əsrlərdə hay kilsəsi gücləri-ni səfərbər etməyə məcbur olub, xüsusilə XX yüzildə,



baş keşişlər V Qevorq Surenyantsın (1847-1930), VI Qevorq Çörəkçiyanın (1868-1954), N.A.Sarkisyan-I Qareginin (1932-1999), K.Q.Nersisyan-II Qareginin (1951)... dövründə. Bu dinsizlər neinki Naxçıvanın, bütünlüklə Azərbaycan dövlətçiliyinin əleyhinə beynəlxalq miqyasda pozuculuq fəaliyyəti göstəriblər.

Naxçıvan-Zəngəzur bölgəsi üzrə Türk-Müsəlman əhalisinə qarşı soyqırım qətliamlarının törədilməsi ilə yanaşı, bu ərazilərdə Arazboyu tarixi, maddi-mədəniyyət, dini-sakral ocaqların dağıdılması, yox edilməsi, son ucda isə "erməni"ləşdirilməsi kimi məkrli məqsədlərini həyata keçirməyə cəhd göstəriblər. Bu şiddət, xüsusilə XX əsrin əvvəllərində, 1904-1906-cı (bu dövrdə Naxçıvanda 200-dən çox kənd məhv edilib, 10 min nəfər dinc sakin qətlə yetirilib) və 1914-1920-ci illərdə Naxçıvan qəzasının Culfa, Şərur-Dərələyəz, Ordubad nahiyələrinin kəndlərində (Cəhri, Zeynəddin, Nursu, Qaraxanbəyli, Nehrəm, Yaycı, Çənnəb, Aza, Əylis, Bist, Kültəpə, Əliabad, Şıxmahmud, Çeşməbasar, Tivi, Tumbul) A.Ozanyanın başçılığı ilə hay-daşnak qüvvələri tərəfindən daha da güclənib.

Hay kilsəsinin və A.Ozanyanın birləşmiş silahlı qüvvələri (8 min nəfər əsgər-zabit heyəti, 4 top, 6 pulemyot) 1917-1919-cu illərdə Cənubi Azərbaycanda, Xoy şəhərində qərarlaşmış Böyük Britaniya-Hind silahlı qüvvələrinin komandanı, general Uilyam Montqomeri Tomsonun (1877-1963) dəstəyinə arxalanaraq Naxçıvan qəzasının Culfa nahiyəsində İlandağ-İnam(c)dağ hövzəsinin Yaycı kəndində soyqırım qətliamı törədib (20-25 iyun 1918-ci ildə), 4 min nəfər dinc sakini amansızlıqla qətlə yetirib, xeyli insan isə Araz çayının sularına qərq olub. 14 iyul 1918-ci ildə Naxçıvan şəhərində 3000 piyada və 600 süvari quldur dəstəsi ilə qırğın törədən A.Ozanyan Yaycı kəndindən Ordubad nahiyəsinə adlayaraq yolboyu kəndlərdə də (Nurs, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənənyar, Camaldin, Ərəzin...) 2 min nəfər Türk-Müsəlman əhlini qılıncdan-süngüdən keçirib.

Həmin qanlı facələrin şahidləri olmuş Darı dağın ətəyindəki Ərəzin kənd sakinləri Sərdar Salman oğlu Xudiyev (1898-1937), İbrahim Məsim oğlu İbrahimov (1895-1985), Həsənqulu Sadıq oğlu Hacıyev (1909-1992)... hay-daşnak quldurlarının vəhşiliklərini heç vaxt unutmur, o qanlı olaylardan söhbət düşəndə göz yaşlarını saxlaya bilmirdilər. O xatirələrdən bir acı səhifə:

-Kərbəlayı Ağaverdi (1885-1918) quldurlardan qorunmaq üçün üç uşağı ilə birlikdə həyətindəki təndirdə gizlənir, amma azğınlaşmış vəhşilər onları tapır, hamısını nizədən-süngüdən keşirərək qətlə yetirirlər... Həsənqulu Sadıq oğlu o vaxt qoyun-quzu otarırmış Darı dağın ətəyində, hay-daşnak dəstəsi heyvanları sürüb aparıb, özünü isə belindəki kəmərlə o qədər döyüblər ki, birdə səhər ayılıb (şəhli otun təsirindən), gedib dağdakı "Alməmməd piri"nə (kənddən 5 km aralıdır), qorxudan bir neçə gün orda qaldıqdan sonra kəndə qayıdıb.

Ərəzin kəndində 1918-ci ilədək 10-15 hay ailəsi yaşayıb, onlar yüzbaşı Kərbəlayı Məsim İbrahim oğlunun təsərrüfatında işləyirlərmiş, həmin qırğınlardan sonra köçüb gediblər.

Bölgədə Cənubi Azərbaycandan köçürülən hay sürüsünün yerləşdirilməsi Səfəvi hökmdarı I Şah Abbasın (1571-1629) dövrünə təsadüf edir.

Naxçıvan qəzasının Türk-Müsəlman əhalisinə qarşı 1918-1919-cu illərdə hay kilsəsinin və hay-rus birləşmiş qüvvələrinin soyqırım faciələrinin qarşısının alınmasında Azərbaycan Milli Ordusunun, yerli özünümüdafiə dəstələrinin köməyinə gələn Osmanlı Türkiyəsinin 1-ci Qafqaz və 12-ci piyada alayı, Cənubi Azərbaycandan gələn general İbrahim xan Kəngərlinin (o, Maku, Xoy, Urmiya əyalətlərində hay-kazak quldurlarına qarşı da döyüşüb) nizami süvari-piyada tağımı... mənfur düşmənə layiqli zərbələr endiriblər (Naxçıvan-Şərur, Naxçıvan-Culfa cəbhə xətti boyunca).

Rusiya çarı II Yekaterinanın (1729-1796) əmri və hay kilsəsinin razılığı ilə 1779-cu ildə Krım xanlığı ərazisindən köçürülən hay sürüsü Don çayı sahilində, Rostov şəhərinin bir hissəsində məskunlaşaraq qondarma "Naxçıvan" şəhərinin əsasını qoyub. Həmin dövrdən başlayaraq hay kilsəsinin "incə" siyasəti davam etməkdədir, beynəlxalq miqyasda təbliğat vasitəsi ilə "Naxçıvan"ın bütünlüklə əhalisinin "erməni"lərdən ibarət olduğu bildirilir. Hansı Naxçıvanın? Təbii ki, hay xislətinə bələd olmayanların əksəriyyətinin Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası barədə məlumatı olmaya bilər, amma dövriyyədə "Naxçıvan" toponimi var...

Yaxın keçmişə dair bir neçə fakta diqqət edək.

Çar Rusiyasının generalı İ.A.Bezborodko (1756-1815) 1812-ci ildə Rusiyanın cənub əyalətlərinə səyahət edib və"Naxçıvan"da bütünlüklə "erməni"lər yaşadığını qeyd edib. Digər bir general N.N.Ryaevski (1779-1829) 1820-ci ildə A.S.Puşkinlə (1799-1837) Qafqazda olarkən, fransız yazıçısı, Fransa Coğrafiya Cəmiyyətinin üzvü Adel Omer de Qell (1819-1883) 1860-cı ildə Paris şəhərində çar etdirdiyi "Xəzəryanı çöllərə və Rusiyanın cənubuna səyahət" kitabında... "Naxçıvan"ın "qonaqpərvər erməni əhalisini" xüsusilə yad edib.

Hay kilsəsi bu "məxməri siyasəti"ni - Türk-Müsəlman mənşəli toponimləri öz adlarına çıxmaqla ayrı-ayrı coğrafi ərazilərin onlara məxsusluğu barədə uydurma, amma mürtəce əməlini hələ də dəyişməyib.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

*R.S. Naxçıvan mahalının bir sıra kəndlərinin adı zaman-zaman hay kilsəsi tərəfindən "erməni"ləşdirilib - Şahbuz rayonu "Şaxapunik", Culfa rayonu, Əbrəqunus kəndi - "Aprakunis", Culfa şəhəri -"Xin Djuqa", Ordubad şəhəri - "Qoxtan", rayonun Kələki kəndi-"Kaxakik", İlandaq və ya İnam(c)dağ -"Vişapasar" ... kimi.*

*(Yazının hazırlanmasında həm də Naxçıvan Muxtar Respublikasının Culfa rayonu, Ərəzin kənd sakini Sənan Məhəmmədəli oğlu İbrahimovun (1959) məlumatlarından istifadə edilib).*